MİRAS
Mədəni İrsin Öyrənilməsinə Kömək İctimai Birliyi

mədəni irs ustad məktəbi

QEYRİ-MADDİ MƏDƏNİ İRS

TƏDRİS VƏSAİTİ

Hazırlayan:
Dr. Fariz Xəlilli

BAKI – 2026

Kitabın məzmunu “Miras” Mədəni İrsin Öyrənilməsinə Kömək İctimai Birliyinin cavabdehliyindədir, bu baxımdan kitabın məzmunu Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin mövqeyini əks etdirmir.

Kitab Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin Qeyri Hökumət Təşkilatları üçün elan etdiyi 2025-ci il Qrant müsabiqəsi çərçivəsində nəşr olunmuşdur.

Xəlilli, Fariz. (Hazırlayan). (2026). Qeyri-maddi mədəni irs: Tədris vəsaiti.
Bakı: *"AFPoliqrAF"*, 2026.– 300 səh.

10 mart – 24 aprel 2026-cı il tarixlərində “Miras” Mədəni İrsin Öyrənilməsinə Kömək İctimai Birliyinin Mədəni İrs Beynəlxalq Ustad Məktəbi qeyri-maddi mədəni irs ustad dərslərinə başlamışdır. Dərslər YUNESKO-nun Qeyri-maddi mədəni irs ilkin siyahısında olan Azərbaycanın 24 qeyri-maddi mədəni irsi mövzularında olub, Azərbaycan irs mütəxəssisləri tərəfindən aparılmışdır. Mühazirələr əsasında tədris vəsaiti nəşrə hazırlanmışdır.

Elmi redaktor: Prof.Dr. Şikar Qasımov
Rəyçi: Prof.Dr. Kübra Əliyeva

Koordinator: Məleykə Hüseynova
Fotolar: Fariz Xəlilli, Məleykə Hüseynova, Nərmin İmanova, Süleyman Süleymanov

ISBN: 978-9952-598-51-3

© “Miras” Mədəni İrsin Öyrənilməsinə Kömək İctimai Birliyi, 2026

MÜNDƏRİCAT

ÖN SÖZ 6

QEYRİ-MADDİ MƏDƏNİ İRS ANLAYIŞI – MƏDƏNİYYƏTİMİZİN DÜNYADA DANIŞAN DİLİ
Şikar Qasımov 7

AZƏRBAYCANIN İRS NÜMUNƏLƏRİ YUNESKO-NUN
QEYRİ-MADDİ MƏDƏNİ İRS SİYAHISINDA
Məleykə Hüseynova 15

AZƏRBAYCAN MUSİQİ MƏDƏNİYYƏTİ VƏ ONUN İNKİŞAF MƏRHƏLƏLƏRİ
Şikar Qasımov 20

MUĞAMIN TARİXİ VƏ MİLLİ KİMLİKDƏ ROLU (ARXEOLOJİ MATERİALLAR ƏSASINDA)
Kübra Əliyeva 30

MUSİQİNİN FƏLSƏFİ DƏYƏRİ
Elmira Abasova 39

TAR ALƏTİNİN YARANMA TARİXİ, FORMALAŞMASI VƏ İFAÇILIQ SƏNƏTİ
Səxavət Məmmədov 50

KAMANÇA ALƏTİNİN YARANMA TARİXİ, İNKİŞAF MƏRHƏLƏLƏRİ VƏ
İFAÇILIQ XÜSUSİYYƏTLƏRİ
Toğrul Əsədullayev 54

"DƏDƏ QORQUD" DASTANI İSLAMİ QAYNAQ KİMİ
Aybəniz Rəhimova 58

POSTMODERN AZƏRBAYCAN ROMANINDA "DƏDƏ QORQUD" DASTANI VƏ
TƏHRİF EDİLMİŞ TARİX
Şəmil Sadıqov 63

AŞIQ, XANƏNDƏLİK VƏ MUĞAM SƏNƏTİNİN AZƏRBAYCAN XALQ YARADICILIĞININ
TƏBLİĞİNDƏ ROLU
Şikar Qasımov 69

OZAN-AŞIQ SƏNƏTİNİN TARİXİ-MƏDƏNİ SƏCİYYƏSİ
Hafiz Kərimov 80

AZƏRBAYCANIN AŞIQ SƏNƏTİ VƏ QADIN AŞIQLARI ƏZİZƏ CƏFƏRZADƏ
YARADICILIĞINDA
Fərqanə Zülfiqarova 87

ŞİFAHİ YUMOR VƏ SÖZ MƏDƏNİYYƏTİ: LƏTİFƏLƏRİN MAARİFLƏNDİRİCİ VƏ
SATİRİK FUNKSİYASI
Lətafət Əliyeva 91

ŞİFAHİ YUMOR VƏ SÖZ MƏDƏNİYYƏTİ: LƏTİFƏLƏRİN MAARİFLƏNDİRİCİ VƏ SATİRİK FUNKSİYASI

Lətafət Əliyeva
Bakı Slavyan Universitetinin dissertantı,
Azərbaycan Rəssamlar İttifaqı
https://doi.org/10.30546/19023.2026.1001.254

Giriş. Şifahi xalq ədəbiyyatı nümunələri xalqın zəngin mənəvi irsinin mühüm tərkib hissəsi kimi əsrlər boyu nəsildən-nəsilə şifahi şəkildə ötürülərək müasir dövrümüzə qədər gəlib çatmışdır. Bu nümunələr uzun müddət xalqın gündəlik həyatında fəal şəkildə istifadə olunmuş, eyni zamanda bədii ədəbiyyatda və ədəbiyyatşünaslıqda elmi baxımdan araşdırılaraq müxtəlif elmi məqalə, monoqrafiya və dissertasiyaların mövzusu olmuşdur. Bu baxımdan şifahi xalq ədəbiyyatı yalnız folklor hadisəsi kimi deyil, həm də mühüm elmi-tədqiqat obyekti kimi xüsusi əhəmiyyət kəsb edir.

Şifahi xalq ədəbiyyatına atalar sözləri, zərb-məsəllər, lətifələr, yumor tapmacalar, bayatılar, nağıllar, dastanlar və digər janrlar daxildir. Bu janrlar xalqın həyat təcrübəsini, dünyagörüşünü, mənəvi dəyərlərini və estetik zövqünü özündə əks etdirir. Şifahi xalq ədəbiyyatı nümunələrindən bəzi misalları nəzərinizə çatdırmaq istərdik:

Bayatı
Araz deyiləm daşam mən
Kür deyiləm qovuşam mən
Qoy gedim öz elimə
Gör nə qiymətli daşam mən.

***

Əzizim Vətən yaxşı
Geyməyə kətan yaxşı
Gəzməyə qərib ölkə
Ölməyə Vətən yaxşı.

Tapmaca
Ağaca çıxdım adamla
Bir nəlbəki badamla
Nə dili var, nə ağzı
Hey danışır adamla. (Açması – kitab)

Atalar sözü
Gec gələn qonaq öz kisəsindən yeyər.
Əsnək əsnəyi gətirər vay samanlıqdakının halına.
Çörəyi ver çörəkçiyə, birini də tay artıq.
Səbr çiçəyi gec bar verən ağacdır.
Su axan arxa bir də axar.
Su axar çuxuru tapar.
Su qədər ömrün olsun.

Lətifə nümunələrindən:

Ye, çuxam, ye

Günlərin birində Molla Nəsrəddin bir məclisə gedir. Əyin-başına o qədər də fikir verməyən və gündəlik geyimlərindən birini geyinib həmin məclisə gedən Mollaya heç kim diqqət yetirmir, sanki yoxmuş kimi davranırlar. Molla məclisi yarımçıq tərk edir, evə gedib çox bahalı geyim geyinir və yenidən məclisə qayıdır. Bir az əvvəl Mollaya salam verməyənlər indi təzim edərək onu məclisin baş tərəfində əyləşdirirlər. Süfrəyə düzülən naz-nemətdən onun qabağına gətirirlər. Bu zaman Molla yeməklərdən əlinə götürür və çuxasına baxaraq deyir: "Ye, çuxam, ye". Bunu görən insanlar: "Ay Molla, bu nə deməkdir, çuxa da yemək yeyərmi?" – deyə sual verirlər.

Molla deyir: "Məclisə ilk gəldiyimdə əynimdəki libasıma görə mənə verilən qiyməti görüb evə qayıtdım. Bu bahalı geyimləri geyinib təkrar bura gəldim və tamam başqa bir səhnə ilə qarşılaşdım. Anladım ki, məclisdə mənə deyil, əynimdəki çuxaya qiymət verildi. Ona görə də mən çuxama müraciət edərək yeməkləri onun yeməsini istədim. Buradakı hörməti mən yox, çuxam gördü, yeməyi də qoy o yesin" [1].

Bu nümunələr insanların nitq mədəniyyətinin formalaşmasında, düşüncə tərzinin inkişafında və sosial münasibətlərin tənzimlənməsində mühüm rol oynamışdır.

Şifahi yumor söz mədəniyyəti. Şifahi yumor söz mədəniyyəti ilə sıx bağlıdır. Söz mədəniyyəti insanların düzgün, aydın və təsirli danışmaq bacarığını ifadə edir. Bu baxımdan lətifələr xüsusi əhəmiyyət daşıyır və xalq müdrikliyinin mühüm ifadə vasitəsidir [2, s. 87].

Şifahi yumor xalqın həyat tərzini, düşüncə sistemini və sosial münasibətlərini əks etdirir. Yumor insanların həyat hadisələrinə tənqidi və müdrik münasibətini göstərir [3, s. 54].

Söz mədəniyyəti isə nitqin düzgünlüyünü, aydınlığını və təsirliliyini təmin edən qaydalar sistemidir. Nitq mədəniyyəti insanın ümumi mədəniyyət səviyyəsinin mühüm göstəricilərindən biridir [4, s. 76].

Şifahi yumor insanların nitqinin zənginləşməsinə və ifadə imkanlarının genişlənərək təkmilləşməsinə kömək edir, həmçinin insanların düşüncə qabiliyyətini inkişaf etdirir və onların analitik düşünmə bacarığını gücləndirir.

Şifahi yumor və lətifələr xalq mədəniyyətinin mühüm tərkib hissəsi olaraq insanların nitq mədəniyyətinin inkişafında və sosial münasibətlərin, eyni zamanda ünsiyyətin formalaşmasına mühüm təsir göstərir. Lətifələr həm maarifləndirici, həm də satirik funksiyaya malikdir və cəmiyyətin inkişafında mühüm rol oynayır. Lətifə ərəb dilind ələtif sözündən olub xoş söz, incə ifadə mənasını bildirir. Lətifələrin formalaşma tarixi IX yüzillikdən sonrakı dövrlərə gedib çıxır. İlk mərhələdə lətifələr türk yazılı nəsrinin təhkiyə formasında yayılmışdır. Ərəb istilasından sonra isə Şərq qaynaqları, xüsusilə ərəb düşüncəsində geniş yer tutan, başlıca təhkiyə, nəql etmə, nəsihətamizlik funksiyalarını üzərinə götürən lətifələrlə – xalq arasında insanları güldürən sözlər çarpazlaşmış və milli epik düşüncədə onun formalaşma prosesi başlamışdır. Beləliklə, lətifələr cəmiyyət həyatındakı ziddiyyət və əksikliklərı – gerilik, cəhalət, nadanlıq, tamahkarlıq, zülm və riyakarlığı gülüş yolu ilə aradan qaldırmağa, insanları yaxşılığa istiqamətləndirməyə çağıran xalq nəsri nümunəsidir.

Azərbaycanda ilk lətifə toplusu 1908-ci ildə Əliabbas Müznib tərəfindən nəşr olunmuşdur. O, sonralar da lətifələrin toplanma və nəşr işləri ilə məşğul olmuş, bir sıra regional lətifələrlə yanaşı, Bəhlul Danəndə (Azərbaycanda yayılan lətifələrin bizə gəlib çatan ən qədim nümunəsi məhz Bəhlul Danəndənin adı ilə bağlıdır) və Molla Nəsrəddin lətifələrinin beş yüzdən artıq nümunəsini toplamışdır [5].

Azərbaycan lətifələri aşağıdakı kimi təsnif edilir:

1. Bəhlul Danəndə lətifələri;
2. Molla Nəsrəddin lətifələri;
3. Regional lətifələr.

Regional lətifələr də öz növbəsində bölünür:

a) Şəki lətifələri (daha çox Hacı dayı ilə bağlı);
b) Qarabağ və Abdal Qasım lətifələri;
c) Ayrım lətifələri;
ç) Ləzgi lətifələri;
d) Müxtəlif məzmunlu lətifələr.

Nümunə: Bəhlul Danəndənin evlənmək istəyən bir nəfərə məsləhəti. Günlərin birində birisi gəlib Bəhlul Danəndəyə deyir: - Bəhlul, mən evlənmək istəyirəm, bir ağıllı məsləhət ver, kimi alım? Bəhlul deyir: - Qız alsan sən bilərsən, dul alsan mən bilərəm, ərindən boşanmış alsan, nə sən bilərsən, nə mən. Sonra Bəhlul: – Dəh, atım, dəh, – deyib qarğı atını səyridir. Kişi Bəhlulun dalınca yüyürüb deyir: - Ay Bəhlul, axı mən səndən söz soruşdum, sən heç nə demədin. Bəhlul deyir: - Bala, sən məni başa düşmədin, mən sənə öz məsləhətimi verdim. Özü də dedim ki, özün bilərsən hansını alarsan, qabaqcadan xasiyyətlərini də söylədim. Oğlan yalvarır ki, Bəhlul Danəndə, yenə başa düşmədim, açıq de... Bəhlul deyir: - Bala, mənim sözlərimin mənası belədir: qız alsan, sən nə desən deyəcək ki, sən bilərsən, çünki qız səndən başqasını görmədiyinə görə elə səni hər şeyi bilən bir adam kimi tanıyacaq. Dul alsan, o deyəcək ki, yox, mən bilirəm. Çünki o köhnə ərindən çox şey öyrənib. Əgər ərindən boşanmış alsan, o heç sözə baxmayacaq. Bir söz deyəndə cin atına minib, "dəh" deyib sənnən də boşanacaq.

Şəki lətifəsi. İki dost avtobusla Şəkidən Bakıya gəlməyə hazırlaşır. İkimərtəbəli avtobusda yuxarıda sadəcə bir boş yer qaldığına görə dostlardan biri aşağıda sürücünün yanında əyləşməli olur. Nəhayət onlar Bakıya çatırlar. Aşağıda əyləşən dost görür ki, o biri dostu özünü pis hiss edir, rəngi də qaçıb. Dərhal soruşur: - Ha sənin cözoo yiyim. Nə olutdu?. Dostu deyir: Haindi bir diyan görax... Sizin avtobusda şofer vardı? Dostu cavab verir: - Hə ne olufdu ki? Digər şəkili: - Haa indi Şəkidən Bakıya gələnə qədər ürək-göbəyimi yemişəm. Bizim avtobusda şofer yox idi! [5].

Bir lətifədən yox, neçə-neçə lətifədən tanıdığımız Molla Nəsrəddin, Bəhlul Danəndə kimi komik fiqurlar barədə bizdə ümumi və səciyyəvi bir təsəvvür yaranır. Təsəvvür ondan ibarət olur ki, bu qəhrəmanlar gah ağıllı, gah da səfeh adamlar kimi hərəkət edirlər. Bəhlul "alim" mənasını verən Danəndə adı ilə tanındığı kimi, Divanə adı ilə də tanınır. Teymurləngin ən dolaşıq, ən köntöy suallarına ustalıqla cavab verən Molla Nəsrəddin bəzən iki eşşəyin arpasını bölə bilməyən aciz və ağılsız adam kimi təqdim olunur.

Molla Nəsrəddin və Bəhlul Danəndənin axmaqlığı ətraf mühitə uyğunlaşmağın, ətraf mühitə münasibət bildirməyin bir formasıdır. Ətrafdakı adamların səciyyəvi cəhətlərindən biri axmaqlıqdırsa, onda Molla Nəsrəddin və Bəhlul Danəndə də özlərini axmaq kimi aparmalıdırlar ki, adamlarla dil tapa, mühitlə qaynayıb-qarışa bilsinlər [6, s. 9].

Molla Nəsrəddin cəmiyyətin bütün təbəqələri ilə – yoxsulla, varlı ilə, qadınla, uşaqla, oğru ilə, quldurla, lotu ilə, alimlə, nadanla heç bir çətinlik çəkmədən dil tapır, ünsiyyət bağlayır. Məhz ona görə ki, Molla Nəsrəddin bütün o adamlarla bir yerdə vahid bir dünyanın – xalq gülüşü dünyasının sakinidir.

Həmin dünyada bir nəfər yox, hamı gülür, bir nəfər yox, hamı gülüş hədəfinə çevrilir. Lətifələrdə kiminsə fərdi aləmindən bəhs olunmur. Təsadüfi deyil ki, Molla Nəsrəddin lətifələrində iştirakçıların

çoxunun şəxsi adı yoxdur. İştirakçılar ümumi şəkildə qazı, vali, hakim, tacir, xan, bəy, hökmdar, oğru, uşaq, arvad, qonşu və s. adlanır. Molla Nəsrəddini nadir hallarda tək görmək olar. Əksər vaxtlarda o, camaat arasındadır. Molla Nəsrəddini ən çox bazar, dükan, hamam, qonaqlıq, ehsan və s. yerlərdə görürük. Hətta gecə evdə olduğu vaxtlarda da Molla kənar adamlarla ünsiyyətdədir: bacadan ona qulaq asırlar, küçədə hay-küy salıb onu yataqdan qaldırırlar, evə tez-tez oğru girir və s. Qazı, vali, hakim, bəy, xan, hökmdar yanında olmağını da Molla Nəsrəddinin camaatla sıx ünsiyyətinin bir nümunəsi kimi anlamaq lazımdır [6, s. 5].

Lətifə qəhrəmanlarını, eləcə də Molla Nəsrəddini tam halda hər hansı bir konkret tarixi dövr və şəxsiyyətlə bağlamaq doğru olmazdı. Ümumiyyətlə, folklorda, aşıq yaradıcılığı istisna olmaqla, şifahi xalq ədəbiyyatının əksər janrlarında, xüsusilə nağıllarda, atalar sözləri və məsəllərdə, bayatılarda, tapmacalarda, eləcə də lətifələrdə müəllif və ya prototip axtarmaq üsulu düzgün deyildir. Ağızdan-ağıza, yüzildən-yüzilə, nəsildən-nəsilə adlayan folklor örnəkləri müxtəlif tarixi şərait və mühitlərdən asılı olaraq əlavə çalarlar, yeni cizgilər qazandığından ilkin vəziyyətini dəyişdirir, xalq yaradıcılığı onu zaman-zaman cilalayır, dərinləşdirir. Elə buna görə lətifələrin də qəhrəmanları hər hansı bir tarixi şəxsiyyətin bədii əksi, portreti deyil, xalqın əsrlərdən bəri yaratdığı ümumiləşdirilmiş surətdir [6, s. 3-4].

Tənqid olunanla tənqid edənin, mənfi ilə müsbətin, pislə yaxşının bir-birinə qaynayıb-qarışması və vahid bir dünya təşkil etməsi xalq gülüşünün çoxmənalı mahiyyət daşımasından xəbər verir. Çoxmənalı mahiyyət daşıyan xalq gülüşündə inkarla təsdiq, ölümlə həyat məhz iç-içədir. «Kosa-kosa» xalq tamaşasında belə bir yer var:

Kosama əl vurmayın,
Kosam ikicanlıdır.
Əmiri börk başında,
Qələm oynar qaşında,
Yüz əlli beş yaşında
Lap, lap cavandı kosam [7, s. 226]

Gətirdiyimiz parçada yüz əlli beş yaşlı kosanın ikicanlı (hamilə) və cavan olması xalq gülüşünün məğzindəki ölüm-həyat, köhnə-yeni münasibətindən xəbər verir. Yüzəlli beş yaşlı kosanın hamiləliyi gülüş doğurur. Lakin bu gülüş ölənə yox, ölüm anında yenidən doğana və doğulana doğru yönəlir. Burada gülüşün çoxmənalılığı ondadır ki, ölüm və həyat eyni nöqtədə – kosada birləşir. Eyni bir obrazda (kosada) ölüm və həyat həm qarşı-qarşıyadır, həm də qarşılıqlı əlaqədə. Hamiləlik və cavanlıq (həyat) yüz əllibeş yaşlı qocalığa (ölümə) qarşı olsa da, onlar ayrılmazdır, çünki eyni bətndədirlər.

Özünü axmaqlığa vurub ətrafdakı predmetlərlə insan timsalında «həmsöhbət» olmaq başqa komik fiqurlar, o cümlədən Bəhlul Danəndə üçün də səciyyəvidir. İki kəndlinin torpaq üstündə davasını kəsmək istərkən Bəhlul Danəndə torpağın özü ilə «məsləhətləşməli» olur; vəziri ölümdən qurtarmaq məqsədilə ağacı sorğu-suala tutur, ağacın «dedikləri»ni dilə gətirib camaata bəyan edir [8, s. 34-36].

Kollektiv yaradıcılıq məhsulu olan lətifə janrı canlı danışıq üslubundadır. Şifahi ədəbiyyatımızın digər janrları kimi onun da söylənişində xalq dilinin koloritindən geniş şəkildə istifadə olunur. Lətifələrdə uzunçuluğa və sözçülüyə, artıq ifadə və kəlmələrə yer verilmir. Bədiilik, canlılıq, reallıq, səlislik, yığcamlıq, aydınlıq, konkretlik, oynaqlıq, şirinlik lətifə dilinin əsas xüsusiyyətləridir. Demək olar ki, xalq dilinin bütün incəlikləri lətifələrdə özünə yer tapa bilir.

Xalq ədəbiyyatının maraqlı və düşündürücü janrlarından biri olan lətifələrin əsas xüsusiyyətlərindən biri maarifləndirici funksiyaya malik olmasıdır. Lətifələr gülüş vasitəsilə insanlara müəyyən həyat

həqiqətlərini və əxlaqi dəyərləri çatdırır. Bu əsərlərdə çox vaxt cəmiyyətin qüsurları, insanların mənfi xüsusiyyətləri yumorla tənqid olunur. Beləliklə, insanlar həm əylənir, həm də müəyyən nəticə çıxararaq düzgün davranış haqqında düşünürlər. Buna görə də lətifələr həm tərbiyəvi, həm də maarifləndirici əhəmiyyət daşıyır.

Lətifələrin maarifləndirici funksiyası insanların düşüncəsini inkişaf etdirmək, onları müəyyən sosial və ya əxlaqi nəticələrə yönəltmək qabiliyyəti ilə xarakterizə olunur. Bu funksiyanı belə izah etmək olar:

- Əxlaqi dərs vermə. Lətifələr çox vaxt yaxşı ilə pisin, doğru ilə yanlışın fərqini göstərir. Oxucu və ya dinləyici gülüş vasitəsilə müəyyən bir nəticə çıxarır.
- Tənqidi düşüncəni inkişaf etdirmə. Lətifələrdə gizli məna, ironiyalar və məntiqi paradokslar olur. Bunlar insanı düşünməyə və hadisələri fərqli bucaqdan qiymətləndirməyə sövq edir.
- Sosial qüsurların göstərilməsi. Cəmiyyətdəki mənfi xüsusiyyətlər (tamahkarlıq, cahillik, ikiüzlülük və s.) yumor vasitəsilə göstərilir və insanlara dolayısı ilə düzgün davranış modeli təqdim olunur.
- Həyati təcrübənin ötürülməsi. Lətifələr nəsildən-nəslə keçərək xalqın həyat təcrübəsini, müdrikliyini və müşahidələrini sadə və yadda qalan formada çatdırır.
- Maarifləndirici və düşündürücü nəticə. Gülüşlə yanaşı, lətifələr insanı düşündürür və müəyyən bir nəticə çıxarmağa vadar edir.

Nəticə. Lətifələrin maarifləndirici funksiyası gülüş vasitəsilə insanlara həyat dərsi vermək, sosial problemləri göstərmək və düşüncə tərzini inkişaf etdirməkdən ibarətdir. Son olaraq qeyd etmək lazımdır ki, lətifələr folklorun bir sıra janrlarından – nağıllardan, əfsanələrdən, rəvayətlərdən, atalar sözlərindən, məsəllərdən... istifadə yolu ilə yaranır. Digər janrlarla qarşılıqlı əlaqənin nəticəsində lətifələr atalar sözlərindən və zərbi-məsəllərdən və əksinə, atalar sözləri və zərbi-məsəllər də lətifələrdən yarana bilir. Lətifələrdən əmələ gələn atalar sözləri və məsəllər lətifənin mətnindən çıxan nəticədən ibarət olur. Başqa sözlə, lətifənin sonluğu aforizm kimi yekunlaşır, yaxud atalar sözü və zərbi-məsələ çevrilir. Azərbaycan folklorunda lətifələrdən yaranan atalar sözləri və zərbi-məsəllər kifayət qədərdir. Məsələn, "Sən çaldın", "Kişinin sözü bir olar", "Bəlkə yolum ağacdan o yana düşdü", "İynənin sapını düyünlə, sonra peşman olmayasan" və s. kimi deyimlər lətifələrdən gəlir.

Bu və digər faktlar lətifələri özünəməxsus yer tutduğuna görə başqa janrlar içərisində fərqləndirir, eyni zamanda həm şifahi, həm də yazılı ədəbiyyat nümunələrinə köklü təsirini özündə əks etdirir.

Ədəbiyyat:

1. E-dərslik [Elektron resurs]. – URL: https://e-derslik.edu.az/books/803/units/unit-1/page131.xhtml – Götürülmə tarixi: 04.04.2026.
2. Kazımov Q. Azərbaycan dilinin nitq mədəniyyəti. – Bakı: Elm və Təhsil, 2011.
3. Əlizadə Ə. Azərbaycan xalq ədəbiyyatı. – Bakı: Təhsil, 2008.
4. Abdullayev N. Nitq mədəniyyətinin əsasları. – Bakı: Elm, 2013.
5. Lətifələr [Elektron resurs]. – URL: https://xanim.az/letifeler-3467 – Götürülmə tarixi: 04.04.2026.
6. Kazımoğlu M., Fərzəliyev T. Lətifələr [Elektron resurs]. – URL: https://researchgate.net – Götürülmə tarixi: 04.04.2026.
7. Azərbaycan folkloru antologiyası. – 2 kitabda. – I kitab / tərt. Ə. Axundov. – Bakı: Azərbaycan EA Nəşriyyatı, 1968.
8. Bəhlul Danəndə lətifələri / tərt. N. Seyidov. – Bakı: Azərnəşr, 1988. – S. 34–36.

Mətbəənin direktoru – Fuad HÜSEYNOV
Texniki redaktor – Azər RƏSULOV
Texniki korrektor – Təranə RƏHİMOVA
Səhifələnmə – Günel ƏSƏDOVA
Çap – Oktay YUSİFOV
Cild – Gövhər NURULLAYEVA
– İlhamə MİKAYILOVA

Kitab ***"AFPoliqrAF"*** *mətbəəsində hazır diapozitivlərdən ofset üsulu ilə çap olunmuşdur.*

afpoliqraf@mail.ru
afpoliqraf@gmail.com
Tel.: +994 (12) 510 96 74
Mob.: +994 (50) 405 96 74

Yığılmağa verilmişdir: 07.04.2026
Çapa imzalanmışdır: 27.04.2026
Qarnitura: Alice, Times New Roman
Şərti çap vərəqi: 37,5
Formatı: 64x90 1/8
Tiraj: 300